# Tarixin qanlı səhifəsi–20 Yanvar

## Qəhrəmanlıq və şanlı salnamə

Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixində 20 Yanvar hadisələri özünəməxsus yer tutur.





Müstəqillik uğrunda güclü imperiyaya qarşı qeyri-bərabər döyüşə atılaraq 1990- cı ilin 20 yanvar gecəsində həlak olan, itkin düşən insanların xatirəsi hər il dövlət səviyyəsində qeyd edilir.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə 20 Yanvar faciəsinin 23-cü ildönümünə hazırlıq məqsədi ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq yanvar ayının əvvəlindən şəhər və qəsəbələrdə 20 Yanvar şəhidlərinin xatirəsi ilə bağlı abadlıq və təmizlik işləri görülmüş, silsilə tədbirlər həyata keçirilmişdir. Rayonun bütün ümumtəhsil ocaqlarında, səhiyyə, mədəniyyət müəssisələrində, idarə və təşkilatlarda 20 Yanvar Azərbaycanın azadlıq və müstəqilliyi uğrunda qəhrəmanlıq rəmzi kimi qeyd edilmişdir. Qəhrəmanlıq tariximizin bu şanlı səhifəsi ilə uşaqlar gənclər daha çox məlumatlandırılmışdır. Şəhər, qəsəbə və kənd məktəblərində 20 Yanvar faciəsinə xüsusi stendlər həsr olunmuş, şəhidlərə həsr olunmuş mövzularda inşalar yazılmışdır. Yanvarın ortalarından «20 Yanvar» mövzusunda xüsusi sinif saatları keçirilmişdir. Yanvarın 18-də bütün təhsil ocaqlarında ümummәktəb toplantısı keçirilmiş, dövlət himni səsləndirilmiş, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, müəllimlər və şagirdlər «20 Yanvar» mövzusunda çıxışlar etmişlər. Ümumtəhsil məktəblərinin əksəriyyətində ədəbi-bədii kompozisiya nümayiş etdirilmişdir. Bu gün şəhərdə və başqa yaşayış məntəqələrində şəhidlərin xatirəsinə ucaldılmış abidələrin, xatirə lövhələrinin ziyarəti təşkil edilmiş, abidələrin önünə gül dəstələri qoyulmuş, şəhidlərin ruhuna dualar oxunmuşdur.



Rayon ərazisində 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Azərbaycanın Dövlət bayraqları endirilmiş, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur. Sonra isə avtomobillər vasitəsi ilə səs siqnalları verilmiş, bir daha xalqımızın qan yaddaşına həkk olunmuş bu gün qəhrəmanlıq günü kimi qeyd edilmişdir. Həmin gün rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, bütün kollektivlər, ictimaiyyətin nümayəndələri şəhərdəki Şəhidlər Xiyabanını ziyarət etmişlər.

Rayon məscidinin imamı Ceyhun Rüstəmov çıxış edərək 20 Yanvar hadisələrini bir daha xatırlatmış, hadisə təşkilatçılarının amansız hərəkətlərini pisləmişdir.

Şəhidlərin ruhuna Qurani-Kərimdən surələr oxunmuşdur.

Ziyarətə gələn insanlar, o cümlədən yeniyetmə və gənclər, müharibə veteranları, yaşlı nəslin nümayəndələri xalqımızın azadlığı uğrundla şəhid olanların xatirəsini yad etmiş, xalqımızın inam yeri olan abidələr önünə gül dəstələri qoymuşlar.

Qanlı yanvar hadisələri ilə bağlı tədbirlər şəhər 1, 2, 3, 4 saylı, Vəndam 1 saylı, Zarağan kənd 1 saylı, Xırxatala kənd tam orta məktəblərində və digər ümumtəhsil ocaqlarında, Heydər Əliyev Mərkəzində, səhiyyə şöbəsində, adlarını çəkə bilmədiyimiz idarə və müəssisələrdə də daha yüksək səviyyədə qeyd edilmişdir.

Xalqımız o müdhiş gecədə canını Vətən uğrunda fəda edən insanları heç vaxt unutmur, onların əziz xatirəsini uca tutur.

## Ağsaqqallar 20 Yanvar–Ümumxalq Hüzn Gününü qeyd etdilər

20 Yanvar—Ümumxalq Hüzn Gününü rayon ağsaqqalları «Qəbələ» otelində qeyd etdilər. Rayon ağsaqqallar şurasının təşkil etdiyi mərasimdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayon icra hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, Böyük Vətən müharibəsinin, Dağlıq Qarabağ müharibəsinin döyüşçüləri və ağsaqqallar iştirak etmişdir. Məclisdə iştirak edən Qəbələ şəhər məscidinin imamı C. Rüstəmov 20 Yanvar faciəsində şəhid olan insanların ruhuna dualar oxudu.



*Səhifənin materiallarını çapa hazırladı Aslan Cəlilov.*

**Fotolar S. Umuyevindir.**